# Tarixi İpək yolunun izi ilə

## Bu izin yolçuları Şərqlə Qərbi birləşdirən üç türk dövlətidir

**Minilliklər boyu xalqlar arasında körpü rolunu oynamış İpək yolu təkcə ticarət marşrutu olmamışdı. Bu yol mədəniyyətlərin, xalqların və sivilizasiyaların qovuşduğu tarixi bir coğrafiya idi. Məhz bu coğrafiya indi yenidən dirçəlir. Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin son görüşü həmin qədim marşrutun müasir formatda canlandırılması yolunda mühüm addımdır.**

Artıq İpək yolunun xəritəsində yeni tranzit xətləri, logistika mərkəzləri və beynəlxalq əməkdaşlıq formatları görünməyə başlayır. Tarixi yolun izləri bu gün karvanlarla deyil, konteyner qatarları, sürətli gəmi daşımaları və rəqəmsallaşdırılmış logistika şəbəkələri ilə canlanır. Şərq-Qərb nəqliyyat dəhlizi qədim yolun XXI əsrdəki alternatividir. Çindən başlayan marşrut xətti Orta Asiya dövlətlərini keçərək Xəzər dənizinə, oradan isə Azərbaycan üzərindən Avropaya uzanır. Və bu nəqliyyat xəttində Türkmənistan, Özbəkistan, Azərbaycan əsas strateji qovşaq ölkələr sayılır.

Dəhliz sadəcə coğrafi keçid olmaqdan çox, regionun siyasi, iqtisadi və texnoloji potensialını birləşdirən və inkişaf etdirən bir arteriyadır. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) adlanan bu xətt artıq beynəlxalq nəqliyyat və ticarət zəncirinin mühüm halqasına çevrilib. Ələt Beynəlxalq Dəniz Ticarət Limanı (Azərbaycan), Türkmənbaşı Beynəlxalq Limanı (Türkmənistan) və Özbəkistanın dəmir yolu şəbəkələrinin bu marşruta inteqrasiya olunması tarixi İpək yolunun ruhunu qoruyaraq onu modern logistika formatında yaşadır.

Bu əməkdaşlıq forması həm də siyasi dialoq, texnoloji inteqrasiya, gömrük və rəqəmsal infrastrukturun uzlaşdırılması, eləcə də ticarətin asanlaşdırılması kimi çoxşaxəli komponentləri əhatə edir. Yeni dövrdə İpək yolu anlayışına keçmişin romantik xatirəsi kimi baxmaq olmaz. O, real iqtisadi maraqların və strateji tərəfdaşlıqların adıdır. Ona görə də tərəddüdsüz deyə bilərik ki, hazırda Azərbaycan, Türkmənistan və Özbəkistanın bu istiqamətdə atdığı addımlar regionda sabitlik və inkişaf üçün yeni imkanlara, eləcə də Avrasiya nəqliyyat sistemində balanslı və çoxtərəfli əməkdaşlığa yol açır. Avqustun 22-də Türkmənbaşı şəhərində üç lider arasındakı yüksəksəviyyəli görüşün yekunlarına dair birgə bəyanat zamanı Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov məhz bu məsələyə toxunaraq demişdir: "İkitərəfli əməkdaşlığın əsas istiqaməti nəqliyyat sektorudur. Biz böyük İpək yolunun bərpası üçün Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizləri çərçivəsində əlaqələri genişləndirmək barədə razılığa gəldik. Xüsusən Mərkəzi Asiyanın və Xəzər hövzəsinin nəqliyyat infrastrukturunun gücləndirilməsi imkanlarını nəzərdən keçirdik".

Qeyd edək ki, görüş zamanı liderlər əsas diqqəti regional nəqliyyat dəhlizlərinin gücləndirilməsinə yönəltdilər. Bu, yalnız coğrafi mövqelərin birləşdirilməsi yox, həm də yükdaşımaların səmərəliliyinin artırılması, tranzit vaxtının qısaldılması və logistika xərclərinin optimallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Xüsusən Türkmənbaşı və Bakı limanlarının strateji imkanlarının reallaşdırılması mühüm yer tutur. Hər iki liman Xəzər hövzəsində açıq qapı funksiyasını yerinə yetirir və Asiya ilə Avropanı birləşdirən nəqliyyat zəncirində vacib halqa sayılır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin səsləndirdiyi bəyanatda bu fikirlər öz əksini belə tapmışdır: "Danışıqlar zamanı nəqliyyat dəhlizlərinin inkişafı, o cümlədən Türkmənbaşı və Bakı limanlarının imkanlarından səmərəli istifadə, birgə logistika infrastrukturunun formalaşması məsələlərinə xüsusi diqqət yetirdik. Milli nəqliyyat sistemlərinin inteqrasiyasının dərinləşdirilməsi məqsədilə regionumuzda fəaliyyətdə olan və perspektivli marşrutların birləşdirilməsi planlarını ətraflı müzakirə etdik. Özbəkistan bu sahədə əlaqələndirilmiş siyasətin həyata keçirilməsinin tərəfdarıdır".




Hər üç liderin çıxışında nəqliyyat və logistika sahəsində əməkdaşlıq beynəlxalq əhəmiyyət daşıyan strateji istiqamət olaraq ortaq fikir kimi ön plana çıxdı. Məlumdur ki, limanların, dəmir yollarının və tranzit xətlərinin uzlaşdırılması Orta Asiyanı Cənubi Qafqaz və Avropa ilə daha sıx birləşdirməyə imkan verir. Bu baxımdan Şavkat Mirziyoyevin səsləndirdiyi fikirlər nəqliyyat marşrutlarının inteqrasiyasına və koordinasiyalı siyasətə ehtiyacın vacibliyini bir daha ortaya qoydu. Eyni xətt üzrə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev isə Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüş zamanı bu əməkdaşlığın real coğrafi üstünlüklərə söykəndiyini və hazırkı infrastruktur imkanlarının şox böyük regional fayda verəcəyini vurğuladı: "Nəqliyyat imkanlarına baxdıqda indi yeni potensial var - Şərq-Qərb nəqliyyat dəhlizi Türkmənistan və Azərbaycan ərazilərindən keçir. Əlbəttə ki, bizim bu sahədəki birgə fəaliyyətimiz, koordinasiyaya yönəlmiş addımlar böyük coğrafiyaya xeyir gətirəcək. Çünki bu gün Avropanı Uzaq Şərqlə birləşdirən etibarlı nəqliyyat bağlantısı bizim ölkələrimizin ərazisindən keçir".

Qeyd olunan ortaq logistika şəbəkəsinin vasitəsilə yük axınlarının koordinasiyası, gömrük prosedurlarının sadələşdirilməsi və nəqliyyat proseslərinin rəqəmsallaşdırılması nəzərdə tutulur. Belə bir inteqrasiya təkcə regional nəqliyyatın təhlükəsizliyini və sürətini artırmaqla qalmır, həm də iştirakçı ölkələrin iqtisadi inkişafına güclü təkan verir, yeni ticarət imkanlarının açılmasına şərait yaradır. Üç türk dövləti liderinin görüşünü birgə inkişaf yolunda qardaşlıq zirvəsi də adlandırmaq olar. Bu zirvə təkcə bugünkü əməkdaşlığın yox, gələcək nəsillərin ortaq maraqlarına hesablanmış strateji baxışın ifadəsi idi.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 24 avqust (№178).- S.4.